*Akademik Tarih ve Düşünce Dergisi* *Academic Journal of History and Idea*
*ISSN: 2148-2292*
*11 (1) 2024*
*Araştırma Makalesi | Research Article*
*Geliş tarihi |Received:05.01.2024*
*Kabul tarihi |Accepted:01.02.2024*
*Yayın tarihi |Published:25.02.2024*

**Elvin Həsənov**

*https//orcid: 0000-0003-4207-2195*
*Research assistant, Ganja State University, General history, International relations history department, Azerbaijan, elvin.hasanov1001@gmail.com*

*Atıf Künyesi | Citation Info*

Həsənov, E. (2024). XXI əsrin əvvəllərində Türkiyə Cümhuriyyətinin regional təşkilatlarda fəaliyyətinin Güney Qafqaz və Mərkəzi Asiyanin təhlükəsizliyinin təminatinda rolü. *Akademik Tarih ve Düşünce Dergisi, 11* (1), 725-735.

# XXI əsrin əvvəllərində Türkiyə Cümhuriyyətinin regional təşkilatlarda fəaliyyətinin Güney Qafqaz və Mərkəzi Asiyanin təhlükəsizliyinin təminatinda rolu

***Öz***

*XXI əsrin əvvəllərində Türkiyə Cümhuriyyətinin xarici siyasətində Cənubi Qafqaz və Mərkəzi Asiya bölgəsində sülhün və təhlükəsizliyin təmin olunması əsas prioritet məslələrdən biri idi. Türkiyə region dövlətləri ilə ikitərəfli və çoxtərəfli əməkdaşlıq etməklə yanaşı, həmçinin regional təşkilatlarda da öz fəaliyyətini davam etdirməkdədir. Xüsusilə də Cənubi Qafqaz və Mərkəzi Asiya regionunda baş verən münaqişələr və qeyri-sabitlik zamanı türk diplomatiyası regional təşkilatlarda öz ədalətli mövqeyini ortaya qoyaraq bölgədə sülhün, təhlükəsizliyin və dövlətlərin ərazi bütövlüyünün təmin olunması prinsipini dəstəkləmişdir. Digər tərəfdən Türkiyə Cənubi Qafqaz və Mərkəzi Asiyadan keçən enerji xətlərinin təhlükəsizliyini təmin etmək və region ölkələri ilə iqtisadi-ticarət əlaqələrin genişləndirmək siyasıtini qarşısına məqsəd qoymuşdur. Həmçinin çevrə dövlətləri ilə normal qonşuluq əlaqələri quraraq dövlət təhlükəsizliyinin təmin edilməsi Türkiyənin xarici siyasətində prioritet məsələlərdən hesab olunur. Türkiyə Cümhuriyyəti dünyada və bölgədə baş verən mövcud siyasi proseslər fonunda Cənubi Qafqaz respublikalarının ərazi bütövlüyünü və suverenliyin tanıyaraq bütün beynəlxalq və regional təşkilatlarda bölgədə mövcud olan etnik-siyasi münaqişlərin dövlətlərin ərazi bütövlüyü prinsipi əsasında həll olunmasının tərəfdarı olmuşdur. Həmçinin Türkiyə Cümhuriyyəti regional təşkilatlar çərçivəsində Mərkəzi Asiya regionunda baş verən münaqişələrin sülh və dövlətlərin suveren təhlükəsizliyi prinsipi əsasında həll olunmasını davamlı olaraq dəstəkləməkdədir.*

***Anahtar kelimeler:*** *Türkiye, bölgesel örgütler, Güney Kafkasya, Merkezi Asya*

# At the beginning of the 21st century, the role of the Republic of Turkey's activity in regional organizations in ensuring the security of the South Caucasus and Central Asia

***Abstract***

*At the beginning of the 21st century, ensuring peace and security in the South Caucasus and Central Asia was one of the top priorities in the foreign policy of the Republic of Turkey. In addition to bilateral and multilateral cooperation with the states of the region, Turkey continues its activities in regional organizations. Especially during periods of conflict and instability in the South Caucasus and Central Asia, Turkish diplomacy has demonstrated its fair position in regional organizations and supported the principle of ensuring peace, security and territorial integrity of the states in the region. On the other hand, Turkey aims to ensure the security of energy lines passing through the South Caucasus and Central Asia and to expand economic and trade relations with the countries in the region. In addition, ensuring state security by establishing normal neighborly relations with neighboring countries is considered one of the priority issues in Turkey's foreign policy. In the face of current political processes in the world and the region, the Republic of Turkey recognizes the territorial integrity and sovereignty of the South Caucasus republics and supports the resolution of ethnic-political conflicts in the region based on the principle of equality. In addition, the Republic of Turkey has consistently supported the resolution of conflicts in the Central Asian region within the framework of regional organizations based on the principle of peace and sovereign security of states.*

***Keywords:*** *Turkey, regional organizations, South Caucasus, Central Asia*

## Giriş

Cənubi Qafqaz və Mərkəzi Asiya regionu tarixlər boyu öz geosiyasi və strateji əhəmiyyətinə görə diqqət mərkəzində olmuş, istər iqtisadi, istər siyasi, istərsə də beynəlxalq münasibətlərdə oynadığı rola görə aparıcı dövlətlərin mübahisə və münaqişə mənbəyinə çevrilmişdir. Yüz illər boyu bu ərazilərdə hökmranlıq edənn türk hakimiyyətləri bölgənin etno-siyasi, sosial-mədəni və iqtisadi-ticari sisteminin formalaşmasında mühüm rol oynamışdır.

XXI əsrdə də Türkiyə Cümhuriyyəti bölgədə baş verən proseslərdə yaxından iştirak edir, Mərkəzi Asiya və Güney Qafqazın siyasi və iqtisadi sisteminin formalaşmasında mühüm rol oynayır. Bu bölgələrdə bəzi dövlətlərlə birbaşa sərhəd hüdudları olan Türkiyə istər öz təhlükəsizliyinin qorunmasında, istərsə də bölgənin ümumi təhlükəsizlik sisteminin formalaşmasında əsas rol oynayan aktorlardan biridir.

Türkiyə Cümhuriyyəti Mərkəzi Asiya və Cənubi Qafqaz bölgəsində sülhün və təhlükəsizliyin təmin olunmasında region dövlətləri ilə ikitərəfli və çoxtərəfli əməkdaşlıq etməklə yanaşı regional təşkilatlarda da öz fəaliyyətini davam etdirməkdədir. Xüsusilə də

Cənubi Qafqaz və Mərkəzi Asiya regionunda baş verən münaqişələr və qeyri-sabitlik zamanı türk diplomatiyası regional təşkilatlarda-Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı (QDİƏT), Türk Dövlətləri Təşkilatı (TDT) və digər qurumlarda öz ədalətli mövqeyini ortaya qoyaraq bölgədə sülhün, təhlükəsizliyin və dövlətlərin ərazi bütövlüyünün təmin olunması prinsipini dəstəkləmişdir.

Türkiyə Cümhuriyyəti regional təşkilatlardakı nüfuzundan istifadə edərək region ölkələrinin beynəlxalq aləmdə fəal rol oynamasını təmin etməyə çalışmaqdadır. Digər tərəfdən Türkiyə Mərkəzi Asiya və Cənubi Qafqaz regionundan keçən enerji xətlərinin təhlükəsizliyini təmin etmək və region ölkələri ilə iqtisadi-ticarət əlaqələrin genişləndirmək siyasətini qarşısına məqsəd qoymuşdur. Eyni zamanda regional təşkilatlarda bölgə dövlətlərinin maraqlarını qorumaq və regionun təhlükəsizliyinin təmin edilməsi Türkiyənin xarici siyasətinin əsasını təşkil edir. Xüsusilə qeyd etmək lazımdır ki, Güney Qafqaz və Mərkəzi Asiya ölkələri öz müstəqilliklərini elan etdikdən sonra Türkiyə Cümhuriyyəti həmişə burada baş verən prosesləri diqqətlə izləmiş, regional təşkilatlarda bölgəyə yönəlik bütün xarici təhdidləri birmənalı şəkildə pisləmişdir.

## 1. Türkiyə Cümhuriyyətinin Qara Dəniz İqtisadi Əməkdaşlıq (QDİƏT) təşkilatında fəaliyyətinin bölgənin təhlükəsizliyinin təminatında rolu

Cənubi Qafqaz və Mərkəzi Asiya bölgəsinədə sülhün və təhlükəsizliyin təminatında beynəlxalq təşkilatlarla yanaşı, regional təşkilatların da mühüm əhəmiyyəti vardır. Regional təşkilatlarda təmsil olunan bölgə dövlətləri, bir tərəfdən regionun təhlükəsizliyinin təmin olunmasında fəal rol oynayır, digər tərəfdən iqtisadi əlaqələrin inkişafında əhəmiyyətli rola malik olurlar. Bu baxımdan Türkiyənin regional təşkilatlarda oynadığı rol olduqca əhəmiyyətli və önəmlidir.

Qafqazın enerji ehtiyatlarının nəqletmə mərkəzlərindən biri olan Qara dənizin təhlükəsizliyi ABŞ və Avropa ölkələri və Türkiyə üçün çox önəmlidir. Tarix boyu şərq-qərb və şimal-cənub marşrutlarına ev sahibliyi edən Qara dəniz regional iqtisadi baza olması baxımından sahilyanı ölkələr üçün çox əhəmiyyətlidir. Türkiyə, 1990-cı ilin dekabrında Qara dənizi təhlükəsizlik və sülh mühitinə çevirmək üçün Qara Dəniz İqtisadi Əməkdaşlıq (QDİƏT) layihəsini elan etdi. Türkiyənin təklif etdiyi bu layihə 1992-ci ildə Türkiyə, Azərbaycan, Ukrayna, Rumıniya, Bolqarıstan, Gürcüstan, Rusiya, Yunanıstan, Moldova, Ermənistan və Albaniya tərəfindən rəsmən qəbul edildi (Karabayram, 2011).

Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı 25 iyun 1992-ci ildə İstanbulda Albaniya, Azərbaycan, Bolqarıstan, Ermənistan, Gürcüstan, Moldova, Rumıniya, Rusiya, Türkiyə, Ukrayna və Yunanıstan dövlət və hökumət başçıları tərəfindən Qara Dəniz İqtisadi

Əməkdaşlıq Təşkilatının (QDİƏT) Bəyannaməsinin imzalanması ilə yaradılmışdır. Təşkilatın əsas məqsədi çoxtərəfli əməkdaşlığın inkişafına təkan verməklə regional sabitliyi təmin etmək, QDİƏT-in çətiri altında iqtisadi və kommersiya əlaqələrinin inkişafı, turizm sahəsində əməkdaşlıq, rabitə, ətraf mühitin mühafizəsi, kənd təsərrüfatı və kənd təsərrüfatı sənayesi, enerji, elektron informasiya şəbəkəsi, elm və texnologiya sahələrində əlaqələrin inkişaf etdirilməsidir. Yarandığı dövrdən etibarən üzv dövlətlər arasında iqtisadi əməkdaşlıq, statistik məlumat və məlumat mübadiləsi, səhiyyə və əczaçılıq, nəqliyyat, fövqəladə hallar və cinayətkarlıqla mübarizə sahələrində əlaqələr davam etdirir (Bleda, 2001). 2004-cü ilin aprel ayında Serbiya və Çernoqoriya dövləti də təşkilata üzv olmuşdur. QDİƏT-in nizamnaməsinə görə təşkilatda "müşahidəçi" statusu da nəzərdə tutulmuşdur. Hazırda Misir Ərəb Respublikası, Avstriya Respublikası, Almaniya Federativ Respublikası, İsrail, İtaliya Respublikası, Polşa Respublikası, Sloveniya Respublikası, Tunis Respublikası və Fransa Respublikası müşahidəçi kimi QDİƏT-in işində iştirak edirlər (Həsənov, 2005).

Oral Sander "Türkiyənin Xarici Siyasəti" adlı əsərində QDİƏT-nın məqsədinin "Qara dəniz regionunu iqtisadi cəhətdən dirçəltməyi qarşısına məqsəd qoyan QDİƏT-in Aİ-yə alternativ olmadığını, onun tərkib hissəsi kimi fəaliyyət göstərəcəyini bildirir və QDİƏT-in siyasi məqsədlərinin yeni beynəlxalq konyukturadan faydalanmaq, zəruri iqtisadi infrastruktur yaradıldıqda siyasi əməkdaşlığı gücləndirmək, regional əməkdaşlıq vasitəsilə üzv dövlətlərin Avropanın yeni arxitekturasında fəal iştirakını asanlaşdırmaq" olduqunu qeyd edir (Sander, 1998).

1998-ci il iyunun 5-də Yaltada imzalanmış Zirvə Bəyannaməsinin (QDİƏT Nizamnaməsi) 1999-cu il mayın 1-də qüvvəyə minməsi ilə QDİƏT tamhüquqlu regional iqtisadi əməkdaşlıq təşkilatına çevrilmişdi. QDİƏT-ə üzv dövlətlərin Xarici İşlər Nazirləri Şurasının 2006-cı il oktyabrın 1-də Moskvada keçirilmiş iclasında Qara dəniz regionunu əhatə edən bölgələrdə dənizlərə çıxışı təmin 7500 kilometr uzunluğunda avtomobil yolunun tikintisi və bu yolun inkişafı üzrə anlaşma memorandumları imzalanmışdır. QDİƏT Xarici İşlər Nazirləri Şurasının 2007-ci il aprelin 19-da Belqradda keçirilmiş 16-cı İclasında "Qara Dəniz Dairəvi Magistral yolunun inkişafına dair Anlaşma Memorandumu" imzalanmışdır. Həmçinin bu görüşdə Qara dənizi əhatə etmək üçün Aİ tərəfindən hazırlanmış Dəniz Avtomobil Yolları konsepsiyası üçün Yunanıstanın təklif etdiyi "QDİƏT Regionunda Dəniz Avtomobil Yollarının İnkişafı" memorandumu da imzalanmışdır. QDİƏT çərçivəsində ilk dəfə qəbul edilən bu mühüm layihələr Avropadan Asiyaya və əksinə yüklərin quruda və dənizdə daşınmasını asanlaşdırmaqla, həmçinin turizmi inkişaf etdirməklə QDİƏT regionunun iqtisadi inkişafına töhfə verəcək (Türbedar, 2007). Qafqaz, Mərkəzi Asiya və

Qara dəniz ölkələrində inkişaf və investisiya imkanlarını qiymətləndirmək üçün 11-12 iyul 2006-cı il tarixində İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (İƏİT) və Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı (ATƏT) ilə əməkdaşlıq çərçivəsində "Mərkəzi Asiya və Qara Dəniz Bölgələrində İnvestisiya və İnkişaf Təşəbbüsü"nə start veriləcəyi qərara alınmışdır. Qara dəniz və Mərkəzi Asiya ölkələrinin makroiqtisadi və struktur sistemini hərtərəfli təhlil etmək məqsədi daşıyan İƏİT İnkişaf Mərkəzi tərəfindən həyata keçirilən bu təşəbbüs çərçivəsində beş Orta Asiya ölkəsi, bütün QDİƏT ölkələri və Əfqanıstan və Monqolustanla əməkdaşlıq nəzərdə tutulmuşdur (http://www.mfa.gov.tr/mfa tr/, 09.12.2007). QDİƏT-in 15 illiyi münasibətilə 25 iyun 2007-ci ildə İstanbulda keçirilən ölkə liderləri sammitində ilk növbədə "enerji" və "Aİ ilə əlaqələr" müzakirə edilmişdir. 1 may 2007-ci ildən təşkilata sədrlik edən Türkiyənin ev sahibliyi etdiyi dövlət və hökumət başçılarının iştirak etdiyi İstanbul sammitin yekun bəyannaməsində, "QDİƏT ölkələrinin enerji sahəsində əməkdaşlığını dərinləşdirmək və enerji resurslarının ədalətli bölüşdürülməsini təmin etmək məqsədilə Aİ və digər beynəlxalq təşkilatlarla birgə fəaliyyət göstərmək istəyi ifadə olunmuş, "Bəyannamə"də BMT və Aİ ilə əlaqələrin inkişafının qarşıdakı dövrün ən mühüm məsələlərindən biri olduğu, QDİƏT-in regional və beynəlxalq münasibətlərdə fəal və etibarlı tərəfdaş kimi rolunu möhkəmləndirdiyi və buna hazır olduğu vurğulanmışdır. İstanbul sammitində Aİ ilk dəfə nümayəndə ilə təmsil olunmuş, ABŞ-ın Ankaradakı səfiri Ross Wilson da müşahidəçi qismində iştirak etmişdir (Milliyet gazetesi, 2007).

Yekun "Bəyannamə"də "Qara dəniz regionunun rifahına töhfə vermək üçün Qara dəniz limanları arasında daha güclü dəniz əlaqələrinin yaradılması təşviq edilir, terrorizm və mütəşəkkil cinayətkarlığa qarşı mübarizədə BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinə və bu sahədə beynəlxalq öhdəliklərə uyğun mübarizə aparılması" ifadə olunurdu (Cumhuriyet gazetesi, 2007). Ümumiyyətlə, Türkiyə Cümhuriyyətinin regional təşkilatlarda, xüsusilə də QDİƏT-də fəaliyyəti Cənubi Qafqazda sülhün və təhlükəsizliyin təmin olunmasında böyük rola malikdir.

### 1.2. Türk dövlətləri Təşkilatı (TDT) bölgədə sülhün və təhlükəsizliyin təmin olunmasında əsas amildir

Bölgədə təhlükəsizliyin təmin olunmasında olduqca əhəmiyyətli regional təşkilatlardan biri də Türk Dövlətləri Təşkilatıdır. (TDT) Bu təşkilat Türkiyə və Azərbaycanla yanaşı, Qazaxıstan, Özbəkistan, Türkmənistan və Qırğızıstan kimi türkdilli ölkələrini öz tərkibində birləşdirir. Müasir dövrdə Türkiyə Cümhuriyyətinn Cənubi Qafqaz və Mərkəzi Asiya Respublikalarında sülhün və təhlükəsizliyin təmin olunmasında Türk Dövlətləri Təşkilatının böyük rolu vardır. Türk Dövlətləri Təşkilatı (keçmiş adı Türkdilli

Dövlətlərin Əməkdaşlıq Şurası) 3 oktyabr 2009-cu ildə Naxçıvanda imzalanan "Naxçıvan müqaviləsi ilə Azərbaycan, Qazaxstan, Qırğızıstan, və Türkiyə arasında qurulmuş olan təşkilatdır.

TDT-nin əsasları SSRİ dağıldıqdan və İttifaqa daxil olan beş türkdilli respublika müstəqillik qazandıqdan sonra formalaşmağa başlamışdır. Birliyin yaradılmasında əsas məqsəd türkdilli dövlətlər arasında həmrəyliyi möhkəmləndirmək, iqtisadiyyat, ticarət, ekologiya, elm, təhsil və mədəniyyət sahəsindəki əməkdaşlığı inkişaf etdirmək idi. Bu təşkilatın təsis edilməsində türk dünyasının aparıcı dövləti olan Türkiyə Cümhuriyyəti xüsusi fəallıq göstərmişdir. Məhz Türkiyə rəhbərlərinin səyləri nəticəsində yenicə müstəqillik qazanmış türkdilli dövlətləri, xüsusən də hələ Rusiyanın təsir dairəsindən çıxa bilməmiş Mərkəzi Asiya respublikalarını Birliyə cəlb etmək mümkün olmuşdu. Türkdilli dövlətlərin bir araya gəlməsində Türkiyənin fəaliyyətini Azərbaycan Prezidenti Heydər Əliyev 2001-ci ildə belə qiymətləndirmişdi:

*"Ümumiyyətlə, 1992-ci ildən başlayaraq, Türkiyə Cümhuriyyəti... türkdilli dövlətləri yaxınlaşdırmaq baxımından öz üzərinə düşən missiyanı şərəflə yerinə yetirir... Türkdilli Dövlətlər Birliyinə qatılmış hər bir ölkə bərabərhüquqludur, ancaq Türkiyə bu Birliyin daha da güclü olmasını, daha da inkişaf etməsini təmin edən ən qabaqcıl ölkədir"* (Həsənov, 2005).

Türkiyənin Baş Naziri Süleyman Dəmirəlin 1992-ci ildə Türk Cümhuriyyətlərinə səfəri zamanı gündəmə gələn və Türk Cümhuriyyətləri arasında ikitərəfli və çoxtərəfli əməkdaşlıq və həmrəyliyin inkişaf etdirilməsi, regional və beynəlxalq problemlərin dövlət və hökumət başçıları səviyyəsində müzakirə edilməsi məqsədi daşıyan sammitlərdən birincisi 30-31 oktyabr 1992-ci ildə Ankarada keçirilmişdi. Türkiyə, Qırğızıstan, Türkmənistan, Özbəkistan, Qazaxıstan və Azərbaycanın iştirak etdiyi bu sammitin açılış nitqində çıxış edən Türkiyə Prezidenti Turqut Özal, "21-ci əsrin türklər əsri olmasını və bu istiqamətdə bütün istiqamətlərdə əməkdaşlığın vacibliyini" xüsusi olaraq vurğulamışdır Lakin bu sammitdə Özalın təklif etdiyi Türk Ortaq Bazarı və Türk İnkişaf və İnvestisiya Bankının yaradılması ilə bağlı təklifləri, Azərbaycandan başqa digər türk ölkələrin liderləri tərəfindən dəstəklənməmişdir. Sammit, yekununda dövlətlərin bir-biri ilə münasibətlərində "daxili işlərə qarışmamaq" və "bərabərlik" prinsiplərinə əməl ediləcəyi, demokratiya, dünyəvilik, sosial ədalət prinsipləri, baza iqtisadiyatı münasibətlərinin əsas götürələcəyinin əks olunduğu 11 maddəlik Ankara Bəyannaməsinin qəbulu ilə yekunlaşmışdır (http://www.denizhaber.com/index.php?sayfa=konukyazarg, 17 Ocak 2007).

İştirakçılar arasında yanaşma fərqliliyinin ön plana çıxdığı sammitdə Özbəkistan lideri Islam Kərimov türk dünyasının fəaliyyətini koordinasiya etmək üçün hər hansı bir qurumun yaradılmasına qarşı çıxmış, ölkəsində əhəmiyyətli dərəcədə rus əhalisi olan Qazaxıstan lideri Nursultan Nazarbayev isə, din və etnik mənsubiyyətə əsaslanan hər hansı bir birliyin yaradılmasına etiraz edəcəyini bildirmişdi. Türkiyə və Azərbaycanın təzyiqlərinə baxmayaraq, Rusiyadan çəkinən Orta Asiya liderləri Ankara Bəyannaməsində Qarabağ məsələsi ilə bağlı münasibət bildirilməsinə razılıq verməmişlər (Aydın, 2005).

İkinci Zirvə görüşü 1994-cü ildə İstanbulda keçirildi. Bu sammitin sonunda qəbul edilən bəyanatda əməkdaşlıq sahələri və həmrəyliyin prinsipləri müəyyən edilmiş, həmçinin Xarici İşlər Nazirləri səviyyəsində müntəzəm məsləhətləşmələr keçirilməsi qərara alınmışdır. Türkiyənin təşəbbüsü ilə keçirilən bu görüşlər Moskvada ciddi narahatlığa səbəb oldu. Rusiya hakimiyyəti Türkiyənin Türk Cümhuriyyətlərinə təsirinin artacağından və Ankaranın bölgədə siyasi təsir dairəsi yaratmaq niyyətində olduğundan ciddi narahat idi. Rusiya Xarici İşlər Nazirliyinin sözçüsü Demurinin "İstanbulda etnik əsaslı zirvə toplantısının Rusiyanı narahat etməyəcəyi ağlasığmazdır" açıqlaması Moskvanın bu mövzuda narahatlığının ifadəsi idi. Ankara hökuməti isə bu əlaqələrin qurulmasında isə ekspansionizm güdmədiyini və bu görüşlərin Rusiyaya qarşı keçirilmədiyini bəyan etmişdir. Süleyman Dəmirəl isə İstanbul Sammitinin iştirakçıları adından bu mesajı vermişdi: "Biz Türkiyə Cümhuriyyəti olaraq ölkəmizin yaratdığı coğrafiyanı gələcək təsir dairəsi və ya rəqabət bölgəsi kimi görmürük. Əksinə, inanırıq ki, bu bölgənin əl-ələ verərək əməkdaşlıq və həmrəylik meydanına çevrilməsi ölkələrimizin və regionumuzun inkişafına və rifahına, beləliklə də dünyada sülhə xidmət edəcəkdir. Türk Cümhuriyyətləri ilə eyni dili, dini və mədəniyyəti paylaşan Türkiyənin bu respublikalarla yaxınlaşmasından təbii heç nə ola bilməz. Lakin vurğulamaq istəyirəm ki, Moskva türk dünyasının inteqrasiyasından son dərəcə narahatdır və bunun qarşısını almaq üçün Türkiyəni zəiflətməyə cəhd etməklə yanaşı, Orta Asiya Respublikalarını öz suverenliyi altına almağa çalışır. Onun Türkiyəyə qarşı istifadə etdiyi yeni vasitələrdən biri də "kürd kartı"dır (Yahya, 1996).

Qeyd edək ki, 1992-ci ildə Türk Dövlət Başçılarının Zirvə Toplantıları çərçivəsində keçirilən ilk görüş postsovet dövrünün ilk illərində yaşanan qeyri-müəyyənlik və yeni müstəqillik əldə etmiş türk ölkələrin "yeni dünya" axtarışları fonunda ümumtürk mədəniyyətinin yenidən formalaşması istiqamətində atılan ilk addım olmuşdur. Lakin ilk Zirvə görüşündən 2000-ci ilin aprelində keçirilən Dövlət Başçılarının 6-cı Zirvə Toplantısına qədər keçirilən görüşlərdə konkret olaraq təşkilati və siyasi baxımdan ciddi uğur əldə edilməmişdir.

Xüsusilə də Zirvə Görüşlərində yekun bəyannamələrin türk və rus dilləri olaraq iki dildə hazırlanması bu məsələdə nə qədər ideoloji və milli düşüncə probleminin olduğunu ortaya qoydu. Bəyanatların hər iki dildə dərc edilməsi Rusiyanın bölgə ölkələrinə siyasi və mədəni təsirinin real göstəricisi idi (http://www.usak.org.tr/makale.asp?id=1156, 03.01.2010). 90-cı illərdə Türkiyənin türk dövlətlərinə yönəlik inteqrasiya siyasətində müəyyən uğurlar əldə edilsə də, gözləntilər özünü doğrultmamışdır.

1992-ci ilin sonlarında Türkiyə ilə Türk Cümhuriyyətləri arasında münasibətlərin daha hərtərəfli inkişafına mane olan bəzi mühüm amillər açıq şəkildə ortaya çıxdı. Mərkəzi Asiya respublikaları ilə əlaqələrə bəslənilən böyük ümidlər dövlət başçıları arasında keçirilən ilk sammitdə gözlənilən nəticəni vermədi. Türk Ortaq Bazarının və Türk İnvestisiya Bankının yaradılması, Türk dünyasında iqtisadi inteqrasiyanın gücləndirilməsi istiqamətində atılan addımlar, yeni Türk Cümhuriyyətləri tərəfindən ŞKTC-nin tanınması, Dağlıq Qarabağ münaqişəsində Orta Asiya dövlətlərinin Azərbaycana yetərli dəstək verməməsi kimi problemlər öz həllini tapmamışdır (Aydın, 2005). Sonrakı illərdə müvafiq olaraq İstanbul (1994), Bişkek (1995), Daşkənd (1996), Astana (1998) görüşləri keçirilmişdi.

2000-ci ilin aprel ayının 8-də Bakıda keçirilən 6-cı Zirvə Toplantısında Türkiyə, Qazaxıstan və Qırğızıstan istisna olmaqla digər türk dövlətlərinin iştirak etməməsi istər siyasi, istərsədə ideoloji baxımdan hələ də problemlərin mövcud olmasından xəbər verirdi. Xüsusilə də, 2001-ci ilin aprelində İstanbulda keçirilən və Özbəkistan-Türkiyə arasında soyuq münasibətlər səbəbindən bu ölkənin prezidentinin iştirak etmədiyi 7-ci Zirvə toplantısından sonra ən geci iki ildən bir keçirilən görüşlərin 2006-cı ilin noyabr ayına qədər - 5 ildən artıq müddətə keçirilməməsi Türk Zirvəsi İdeyasının artıq tərəflər tərəfindən eyni ciddiliklə qəbul edilməsi şübhəsini ortaya qoymuşdu. Eyni zamanda Rusiya və Çinin siyasi təsir dairəsində olan 1996-cı il aprelin 26-da təsis edilən Şanxay Əməkdaşlıq Təşkilatında Qazaxıstan, Qırğızıstan və 2001-ci ildən isə Özbəkistanın iştirakı, türk dövlətlərinin birlik perspektivlərinə ciddi alternativ idi (http://www.turksam.org/tr/a614.html,17. 03.2010). Qeyd edək ki, Birləşmiş Millətlər Təşkilatının (BMT) Özbəkistanda insan haqlarının pozulması ilə bağlı hazırladığı hesabata Türkiyənin dəstəyini əsas gətirərək Bakı Zirvəsinə qatılmamaq qərarına gəlmişdi. Ümumiyyətlə, Özbəkistan Bakı zirvəsindən sonra Türkiyənin Özbək müxalifətinə dəstək verdiyini iddia edərək bu görüşlərə soyuq münasibət bəsləmiş, bu dövrdə Türkiyənin Özbəkistanla münasibətlərində xeyli zəifləmə müşahidə olunmuşdu (Oğan, 16 Kasım, 2006).

Qərbin Özbəkistana qarşı bu qərarı bəzi dairələr tərəfindən ikili standart kimi qiymətləndirilmişdi. BMT-nin sessiyasında 74 əleyhinə 69 lehinə səslə rədd edilən bu

qərarın, digər Türk Cümhuriyyətləri tərəfindən dəstəklənmədiyi halda Türkiyə tərəfindən müdafiə olunması, türk xarici siyasətinin türk dünyası ilə bağlı mövqesizliyinin göstəricisi kimi qiymətləndirilmişdir (Külebi, Ocak, 2007). Özbəkistanın Şanxay İttifaqına 2001-ci ildə qoşulduğu ildən 2006-cı ilə qədər türk dövlətlərinin heç bir toplantısı keçirilməmişdir. Bu dövrlərdə isə Rusiya Şanxay Əməkdaşlıq Təşkilatından Orta Asiya ilə Türkiyənin birgə fəaliyyət göstərməsinə mane olmaq üçün fəal şəkildə istifadə etmişdir. Bu beşillik müddət ərzində Şanxay Təşkilatı 2002, 2004 və 2006-cı illərdə üç dəfə toplantı keçirmiş, 2003 və 2005-ci illərdə isə birgə hərbi təlimlər təşkil etmişdir. Bu dövrdə həmçinin tərəflər arasında ortaq təhlükəsizlik müqaviləsi imzalanmışdır. Ümumilikdə götürdükdə isə Rusiya, Türkiyənin 1990-cı illərdə əlində olan vaxtın yarısı qədər müddətdə bölgədəki balansı öz xeyrinə dəyişmişdir (http://news.xinhuanet.com/english/2006-04/22/content_4459199.htm, 24 10.2009). Beş ildən sonra 2006-cı ildə Antalyada keçirilən 8-ci Sammitdə bir araya gələn liderlər arasında Özbəkistan və Türkmənistan liderləri yox idi. Türkmənlər tərəfindən toplantıda Türkmənistanın Ankara səfiri iştirak edirdi. Qeyd edək ki, bu görüşdən bir il əvvəl, ŞƏT sammitində ABŞ-a Mərkəzi Asiyada hərbi mövcudluğunu dayandırmaq çağırışı edilmişdi. Bu bəyənatdan sonra Moskva və Pekinin dəstəyi ilə İslam Kərimov ölkəsində yerləşdirilən Xanabad Hərbi Bazasının boşaldılmasına nai ola bilmişdi (Ogan, 26 Ocak, 2006).

Qeyd edək ki, Karşi-Xanabad bazası 2001 - ci il 11 sentyabr terror aktından sonra ABŞ Müdafiə Nazirliyinin istifadəsinə verilmişdir. Bu, Əfqanıstan ərazisində əməliyyatlara aviasiya dəstəyinin göstərilməsi, Amerika qoşunlarına ərzaq və hərbi əmlakın çatdırılması üçün edilmişdi. ABŞ - ın Əndican hadisələrinin ardınca səslənən tələblərindən sonra, Şanxay Əməkdaşlıq Təşkilatının sammitində Bəyannamə qəbul edildi. Bəyannamədə ABŞ - a Amerika qoşunlarının Özbəkistanda qalmasının məqsədəuyğunluğu məsələsini nəzərdən keçirmək çağırışı öz əksini tapmışdı. Nəticədə Amerika hərbi hava qüvvələri aviabazanı 2005-ci il noyabrın 21-də tərk etmişdi. (https://az.trend.az/other/world/1375390.html, 18.112.2008). 2009-cu ilin oktyabr ayının 3-də Naxçıvanda keçirilən sonuncu Zirvə Toplantısında Özbəkistan heç bir səviyyədə iştirak etməmiş, Türkmənistan isə vitse-prezident Saparəliyevlə təmsil olunmuşdur. Naxçıvan görüşünün ən mühüm nəticəsi iştirakçı dövlətlər arasında əməkdaşlığın institusionallaşdırılmasını nəzərdə tutan Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının (TDƏŞ) yaradılması haqqında Naxçıvan Sazişinin imzalanması olmuşdur. Bu Toplantıda, Türkdilli Ölkələrin Dövlət Başçıları Şurası, Türkdilli Ölkələrin Xarici İşlər Nazirləri Şurası, Məmurlar Komitəsi, Ağsaqqallar Komitəsi və qərargahı İstanbulda yerləşən katiblikdən ibarət idarəçilik mexanizminin yaradılmışdır

(http://www.usak.org.tr/makale.asp?id=1156, 17.04.2010215). Ümumiyyətlə, bölgədə baş verən geosiyasi hadisələrin fonunda Türkiyə Cümhuriyyətinin xarici siyasətində Türk Dövlətləri Təşkilatında fəaliyyəti əsas prioritet məsələlərdən hesab olunur. Bu fəaliyyət Güney Qafqaz və Mərkəzi Asiya regionunda sülhün və təhlükəsizliyin təmin olunmasında mühüm rol oynayır.

**Sonuç**

XXI əsrin başlanğıcında bölgədə baş verən hərbi-siyasi hadisələr və iqtisadi proseslər yeni geosiyasi vəziyyət yaratmış və çoxşaxəli nəticələrə səbəb olmuşdur. Müasir dövrdə Türkiyə Cümhuriyyətinin Cənubi Qafqaz və Mərkəzi Asiya regionuna yönəlik siyasətinə ümumi nəzər yetirdikdə, bu dövlətin bölgədə baş verən geosiyasi hadisələrdə yaxından iştirakının şahidi olur, regionun təhlükəsizliyinin təmin olunmasında önəmli rolu önə çıxır. Müasir dövrdə Cənubi Qafqazda mövcud olan etnik münaqişələr, Mərkəzi Asiyada geosiyasi mövqeyi ilə seçilən Əfqanıstanda baş verən münaqişələrin regional və beynəlxalq proseslərə təsiri, həmçinin Mərkəzi Asiya regionunda yerləşən dövlətlərin geosiyasi əhəmiyyəti, Avrasiya nəqliyyat dəhlizində oynadığı rol regional təhlükəsizliyin aktual problemlərdən biri olduğunu önə çıxarır.

Regionda mövcud münaqişələr, yeni dünya düzəninin formalaşma prosesi, Avrasiya dünyasında baş verən geosiyasi və geoiqtisadi inteqrasiya regionun aparıcı dövlətlərindən biri olan Türkiyə Cümhuriyyətinin bölgəsəl siyasətinin əhəmiyyətini artımaqdadır. Məlumdur ki, mövcud siyasi şəraitdə Türkiyə Cümhuriyyətinin Mərkəzi Asiya və Cənubi Qafqaz bölgəsinə yönəlik siyasəti strateji əhəmiyyət daşımaqla yanaşı bölgədə təhlükəsizliyin təmin olunmasında əhyəmiyyətli rola malikdir. Xüsusilə də Türkiyə Cümhuriyyətinin Mərkəzi Asiya regionunda yerləşən Türk Cümhuriyyətlərinə yönəlik siyasəti, bu bölgənin türk dövlətlərinin təhlükəsizliyinin qorunmasında vacib amillərdən biridir. Məhz bunları nəzərə alaraq, Cənubi Qafqaz Respublikaları – Azərbaycan, Gürcüstan, Ermənistan, Mərkəzi Asiya Respublikalarından Qazaxıstan, Türkmənistan, Özbəkistan, Qırğızıstan, Tacikistan, Əfqanıstan kimi dövlətlərin geosiyasi proseslər konteksində təhlükəsizliyinin təmin olunmasında Türkiyə Cümhuriyyətinin rolu məsələsi bu gün də Türkiyənin xarici siyasətinin əsas istiqamətlərindən birini təşkil edir. Qeyd etmək lazımdır ki, XXI əsrin əvvəllərində Güney Qafqazda baş verən geosiyasi və iqtisadi proseslər, bölgədə mövcud olan etnik-siyasi münaqişələr, bu münqişələrin həlli perspektivlərində Türkiyə amili vacib amillərdən biri olmuşdur. Xüsusilə də Qarabağ münaqişəsinin həll olunmasında Türkiyənin siyasi mövqeyi olduqca mühüm rola malik idi. Həmçinin Avro-Asiya nəqliyyat dəhlizi, Şərq-Qərb enerji ixracında Türkiyə Cümhuriyyətinin rolu,

ümumilikdə bölgənin siyasi və enerji ixracı təhlükəsizliyinin təminatında əhəmiyyətli rola malikdir.

## Kaynaklar

ABŞ qoşunları Özbəkistanın Karşi-Xanabad bazasına qayıtmayacaq, https://az.trend.az/other/world/1375390.html. 18.112.2008.

Aydın, M. (2005). *Küresel Politikada Orta Asya. (Avrasya Üçlemesi)* 1. Nobel Yayıncılık.

Bleda, T. (2001). Karadeniz Ekonomik İşbirliği Örgütü. *Avrasya Dosyası*, *7* (1), İlkbahar.

(2007, 26 Haziran). *Cumhuriyet gazetesi.*

Həsənov, Ə. (2005). *Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti*. Azərbaycan nəşriyyatı.

Karabayram, F. (2011). *Güney Kafkasya Jeopolitiğinde Rusya Gerçeği.* IQ Kültür Sanat Yayıncılık.

Külebi, A. (2007). Türk Dünyası ve Politika (sızlığı) mız!. *Türk Yurdu*, *27* (233).

(2007, 26 Haziran). *Milliyet gazetesi.*

Oğan, G. (16 Kasım, 2006). *Türk Dili Konuşan Ülkeler Devlet Başkanları Zirvesi Antalya'da Toplanıyor.* Avrasya Stratejik Araştırma Merkezi (ASAM).

Ogan, G. (26 Ocak, 2006). Andican Olayları Sonrasında Özbekistan'ın Dış Politikası, *Nezavisimaya gazeta.*

Sander, O. (1998). *Türkiye'nin Dış Politikası.* İmge Kitabevi.

Türbedar, E. (2007). KEİ Genel Sekreteri ile Söyleşi. *ASAM*, 16 Nisan.

Yahya, H. (1996). *Türkiye için Milli Strateji.* Vural Yayıncılık.

http://www.mfa.gov.tr/mfa tr/

http://www.denizhaber.com/index.php?sayfa=

http://news.xinhuanet.com/english/2006-04/22/content_4459199

http://www.usak.org.tr/makale.asp?id=1156

http://www.turksam.org/tr/a614.html

http://www.usak.org.tr/makale.asp?id=1156